**KAMRAN İMANOV**

# Ümumdünya Əqli Mülkiyyət Təşkilatından Azərbaycan şagirdinin qızıl medal alma mərasimi

**Bakı – 2023**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Ümumdünya Əqli Mülkiyyət Təşkilatından Azərbaycan şagirdinin qızıl medal alma mərasimi. Bakı, 2023**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 29 fevral 2016-cı il tarixində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Qızıl medalının təltif edilmə mərasimində etdiyi giriş sözü əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2023**

## Ümumdünya Əqli Mülkiyyət Təşkilatından Azərbaycan şagirdinin qızıl medal alma mərasimi

**Hörmətli dostlar, xanımlar və cənablar!**
**Əziz şagirdlər və onların müəllimləri!**

Bu tədbir Azərbaycan şagirdinin böyük nailiyyətinə, yaradıcılıq və uğurlarına görə ÜƏMT-nın qızıl medalı ilə təltif olunmasına həsr olunub. Bu şagirdimiz Bakı Avropa Liseyinin nümayəndəsi Hüseyn Hacıyevdir. Qeyd etməliyik ki, ÜƏMT-nin ilk dəfə olaraq Mükafatlar Proqramı şagirdlərə də şamil olunub və Agentliyin xahişi ilə Təhsil Nazirliyi seçim turunu keçirərək, Hüseyn Hacıyevin namizədliyini bizə təqdim etmişdir. Agentlik isə öz növbəsində namizədinin adını və soyadını, onun nailiyyətləri haqqında dolğun məlumatla birgə ÜƏMT-ə təqdim etmişdir. Nəticə isə göz qabağındadır: ÜƏMT-nın qızıl medaldan və Baş direktoru cənab F.Qarrinin imzaladığı sertifikatdan ibarət olan təltifi böyük məmnuniyyətlə bizim şagirdimiz Hüseyn Hacıyevə çatdırmaq mənə nəsib olub. Ürəkdən təbrik edirəm və yeni yaradıcılıq uğurları arzulayıram.

**Hörmətli dostlar!**

Bu ƏM mükafatı mili təhsil və əqli mülkiyyət sistemlərimizin böyük nailiyyətidir, Azərbaycanın böyük uğurudur.

**Hörmətli iştirakçılar!**

Əqli mülkiyyət nə deməkdir? Əql və mülkiyyət bir-biri ilə nə cür bağlanır?

Əqli mülkiyyət yaranan zaman qeyri-maddi olan ideyaları və elm, ədəbiyyat və incəsənət əsərləri, o cümlədən softveri, ixtiraları və texnologiyaları ifadə edən anlayışdır. Bütün sadalanan obyektlər yaranandan sonra obyektivləşə bilir, yaradıcısından ayrılır və hər bir məhsul kimi maddi formaya çevrildikdə öz dəyərini tapır, sərvətə çevrilir. Bunlar isə müəlliflik hüququ və patentlər vasitəsilə qorunur. Beləliklə, ƏM anlayışında əql, intellektual fəaliyyət nəticəsi müəyyən dəyərə çevrilir və bu səbəbdən dəyəri ifadə etmək üçün mülkiyyət sözü ilə birləşdirilir. Burada mülkiyyət məxsusluq hüququ deməkdir. Bir sözlə, ƏM-i yaratmaq üçün mövcud biliklərdən istifadə olunur və nəticədə yeni bilik əmələ gəlir. Odur ki, ƏM və ya ƏMH biliklər dövranının həm xammalı, həm də məhsuludur. Bir sözlə, ƏM-i əldə etmək – biliyə və kreativliyə, savada və yaradıcılığa nail olmaq, əqli fəaliyyət nəticələrinə sahib çıxmaq deməkdir.

**Hörmətli dostlar!**

Bizim şagird Hüseyn Hacıyev ÜƏMT-nin qızıl medalı ilə IT sahəsindəki nailiyyətlərinə görə təltif olunub. Bugünkü dövr – rəqəmsal dövrdür və çox şeyi dəyişdirib. Onun yaratdığı kontent bu gün, eyni zamanda, həm əsas məhsul, həm də rəqəmsal iqtisadiyyatın mənbəyi hesab olunur, eynilə rəqəmsal fayl kimi – bu, həm texnologiyadır, həm də istehsal yeri.

Əqli mülkiyyətin dünyada bugünkü fəaliyyət kontekstinin prinsipial fərqləndiyi eyni dərəcədə əqli mülkiyyətə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişməsini tələb edir. İnformasiya dövrü ilə bağlı hətta bazarda da, iqtisadiyyatda da yeni termin “asimmetriya” əmələ gəlib, yeni nəzəriyyə üzə çıxıb.

Bu nəzəriyyənin işlədilməsinə görə bir sıra Amerika alimləri (Jorc Eykerlof, Mayk Spens və Jozef Ştiqlis) Nobel mükafatına layiq görülüblər. Bu alimlər göstərə biliblər ki, müasir informasiya cəmiyyətində bazarın iqtisadi subyektlərinin davranışını idarə edən «bazarın görünməz əli» deyil, onun iştirakçılarının informasiya silahlanmasıdır, informasiya təminatlarının bərabərsizliyidir. Odur ki, daha silahlanmış subyektlər daha tez alınan və səlis informasiyaya əsaslanaraq daha düzgün və operativ qərar qəbul edib, öz informasiya üstünlüyünü istifadə edirlər.

**Hörmətli iştirakçılar!**

Bəllidir ki, ƏM – yaradıcılıq və innovasiyalara investisiyaların yönəldilməsi üçün əlverişli mühitin yaradılmasında və yaradıcılıq, innovasiya məhsullarının yayılmasında başlıca vasitədir. Yaradıcılıq və yenilikçilik insanların müstəsna təbii resurslarıdır və mədəni irs xəzinəsini zənginləşdirən yeganə mənbədir. Yaradıcı fərdlərin zəkasının törəmələri, intellektual nailiyyətləri onların ilk növbədə şəxsi müvəffəqiyyətlərindən bəhs edərək, əsər, ixtira, müəlliflik və patent hüququ obyekti kimi ümummilli xəzinəyə daxil olunur,

xalqın intellektini zənginləşdirir. Millətin isə əqli nailiyyətləri ənənəvi mədəni nümunələrdə və ənənəvi biliklərdə cəmləşir, qeyri-maddi mədəni irsdə özünü ifadə edir.

**Hörmətli dostlar!**

Dünya miqyasında ƏM ilə məşğul olan ÜƏMT BMT-nın ən iri ixtisaslaşmış təşkilatlarının biridir, 200-ə yaxın üzv-dövlətləri birləşdirən hökumətlərarası vacib orqandır. ÜƏMT-nın sərəncamçılığında 25-dən çox əqli mülkiyyət üzrə beynəlxalq konvensiya və müqavilələr cəmləşir və dünya miqyasında ƏM üzrə koordinasiya və mübadilə onun dəstəyi və nəzarəti altında keçirilir. Məhz ÜƏMT ƏM-in ümumdünya dəyərini bəyan edərək, onun bütün xalqlara məxsusluğunu, hər bir zaman və hər bir mədəniyyətlərdə olduğunu, hamının varidatı kimi tanıtdırır.

**Hörmətli iştirakçılar!**

Bu ilin yanvar ayının 29-da cənab Prezident İlham Əliyev ölkə gənclərinin bir qrupu ilə görüşündə demişdir: «Hesab edirəm ki, bu gün ölkəmiz üçün yeni dövr başlayır. Əminəm ki, bu dövr də uğurlu olacaqdır. Bu postneft dövrüdür…

İndiki dövr isə inkişaf etmiş ölkələrdəki kimi, daha çox innovasiya, intellektual inkişaf dövrü olacaq…

...Bundan sonrakı dövrdə həm siyasi müstəvidə, həm də iqtisadi və hərbi sahələrdə texnologiyalar, bilik, savad hər şeyi həll edəcək».

Beləliklə, gələcəyə baxış kreativ və innovasiyalı cəmiyyətin formalaşması ilə bağlıdır. Bu isə o deməkdir ki, “biliklərə əsaslanan iqtisadiyyat”, “rəqəmli iqtisadiyyat” və “kreativ”, “innovativ iqtisadiyyat” cəmiyyətin davamlı və qüdrətli inkişafında aparıcı rol oynayacaq.

Cənab Prezident İ.Əliyevin dediyi kimi, “müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır”.

**Hörmətli dostlar!**

Uzun illərdir ki, mütəxəssislər arasında pulun (yəni iqtisadi amilin) yaxud hüquqların (yəni ədalət amilinin) daha vacib olması ilə bağlı mübahisələr səngimir. Bununla belə, bu mübahisə müəyyən mənada prinsipial əhəmiyyət daşımır, ona görə ki, hüquqlar daim məhsulların yaradılması və mübadiləsini stimullaşdırır, iqtisadi münasibətlər isə həmişə hüquq sistemini inkişaf etdirir. Bütün zamanlarda bu, belə olmuşdur. Lakin müasir iqtisadiyyat biliklər iqtisadiyyatı vektoru üzrə inkişaf edir və bu iqtisadiyyatda ƏM xüsusi status kəsb edir. Bunun bariz nümunəsi tarixin müasir meyllər mövqeyindən təhlil edilməsidir. Hələ Platon özünün “İdeyalar nəzəriyyəsi”ndə ümumbəşəri dəyərlərdən birincisi kimi zövq almağı və ya rifah-halı, yəni pulları və hətta ədaləti, yəni hüquqları yox, məhz bilikləri hesab etmişdir.

Biliklərin və intellektin rifah sərvətlərinin yaranmasında xüsusi rolunu qeyd edərək, çox-çox sonra, XX əsrin məşhur fəlsəfəçisi Karl Popper çox maraqlı

bir misal gətirib. Alimin dediyi kimi «biliklər əksər maddi əşyalardan daha fundamentaldır, daha dəyərlidir. Tutaq ki, bizim iqtisadi sistem bütövlükdə, o cümlədən, sosial və sənaye strukturları məhv edilib, iflasa uğrayıb. Ancaq elmi və mədəni biliklər qorunub saxlanmışdır. O zaman qısa bir müddətdə insanlar dağılmış maddi obyektləri bu biliklərə əsasən bərpa edəcəklər. Əks halda, əgər iflasa uğramış biliklərimiz olsa, maddi əşyalar isə olduğu kimi qalsa, sakinləri tərəfindən atılmış industrial ölkə kimi paradoksal mənzərə yaranacaqdır. Belə bir ölkə burada məskən salmış vəhşi tayfaların məkanına oxşamalıdır».

**Beləliklə**, **biliklərdən vacib yalnız bilik olar.** Digər dahi alim Eynşteyn bu anlayışı daha da inkişaf etdirərək bəyan etdi ki, “təxəyyül biliklərdən daha vacibdir”.

ƏM məhz biliklərin təməlinə və təxəyyülün gücünə əsaslanır. Buna görə də bəşəriyyətin tarixi təxəyyülün, yəni yaradıcılıq və innovasiyaların gücünün biliklərin mövcud kütləsinə tətbiqi tarixidir. Bu həm elmdə, həm mədəniyyətdə (incəsənətdə), eləcə də insan biliklərinin bütün digər sahələrində baş vermiş, qeyri-maddi nemətlər mahiyyətcə sivilizasiyanı formalaşdırmışdır. Varlıq, sərvət və varidat da sivilizasiyanın onlardan asılı olduğu kimi sivilizasiyadan asılıdır.

Əslində bəşəriyyətin sonsuz kəşfləri və innovasiyaları, bilikləri cəmləşdirən əlyazmaları, o cümlədən Mesopotamiyanın ilkin yazılarından Çin hesabından Suriya astrolyabiyasından, qədim Hindistanın rəsədxanalarından və s. başlayaraq, müasir nanotexnolo-

giyalara və gen mühəndisliyinə qədər yaradıcı şəxslərin təxəyyülünün mövcud biliklərə tətbiqi nəticələridir.

Doğma Azərbaycan diyarımız yaradıcılıq və yenilikçilik zəngin nümunələri ilə səciyyələnir. 12 min illik tarixi olan Qobustan qayaüstü yazıları və rəsmləri, bir növ daş kitabələrin külliyyatı, 2 min ilə yaxın tarixi olan Ana Kitabımız Dədə Qorqudun şifahi boyları və əlyazmaları, 1,5 min illik tarixi olan qədim Qafqaz Albaniyasının əlifbası, Midiya, sonrakı Atropatena dilindəki üç dildən birində qeyd olunan 2,5 min illik tarixli Behistun yazısı, orta əsrlərdə aşıq-ozanlarımızın tapşırmaları, dahi Nizaminin şerlərində əksini tapmış bilikləri, Tusinin ilk həndəsə dərslikləri və s. bunlara dəlalət edir.

Müasir dövrdə Azərbaycanın ƏM sistemi dövlət başçımızın uzaqgörən siyasəti və səyləri nəticəsində uğurla inkişaf edir.

Bunlara dəlalət edən 10 qanundan, 100-ə qədəri normativ-hüquqi sənədlərdən ibarət olan Azərbaycanın müasir əqli mülkiyyət bazasıdır. Bunların içərisində 5 qanun müəllif hüququ və oxşar hüquqlarla bağlıdır və onların sərəncamçılığına Müəllif Hüquqları Agentliyi cavabdehdir. Bütün beynəlxalq müqavilələrdə iştirak edən, 20 illik böyük inkişaf yolu keçmiş müstəqil Azərbaycanın müəllif-hüquq sisteminə qiymət verilərək, Azərbaycan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Rəhbər Koordinasiya və Büdcə Komitələrində təmsil olunmuş, həmkarlarımız beynəlxalq ekspert səviyyəsində çıxış edirlər və nümayəndəmiz

Müəllif hüququna dair ÜƏMT-nin Müqaviləsi Assambleyasının vitse-prezidenti seçilmişdir.

Dünya İqtisadi Forumunun rəqabətqabiliyyətliliyi ilə bağlı müvafiq Hesabatlarında göstərildiyi kimi, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan 40-cı yerdə, əqli mülkiyyətin qorunması altindeksə görə Azərbaycan institutları 2013-2014-cü və 2015-ci illərin Hesabatlarında MDB-də lider mövqeyindədir, Cənubi Qafqazda isə 1-ci yerdədir.

Dövlətin əqli mülkiyyət hüquqları ilə bağlı siyasətini həyata keçirən Müəllif Hüquqları Agentliyi tam kompüterləşmiş, tərkibində müasir texnologiyaları və avadanlığı, SMART-təlim distant sistemi, müasir Hüquqların Təminatı Mərkəzi və rəqəmli hüquqların idarə olunması Xidməti, yeni tələblərə uyğun olan mətbəə ilə təchiz edilmiş və "Elektron Hökumət" portalına qoşulmuş, 5 növ elektron xidmətlər həyata keçirən, üstəlik "960" qaynar xətti, ictimai hüquq məsləhətxanası və Apelyasiya şurası olan mərkəzi icra hakimiyyəti statusuna bərabər olan dövlət orqanıdır.

Beləliklə, Ulu öndər H.Əliyev tərəfindən bünövrəsi qoyulan və dövlət başçısı cənab İlham Əliyevin düşünülmüş davamçılıq siyasətinin nəticəsi kimi Azərbaycanın müəllif-hüquq sistemi beynəlxalq ekspertlərin rəyinə əsasən, MDB məkanında ən inkişaf etmiş nümunəvi sistemlər sırasında qəbul edilmişdir. Bu sistemin gələcəyi Prezident İ.Əliyev tərəfindən imzalanmış «Azərbaycan 2020: Gələcəyə baxış» Konsepsiyasında özünəməxsus yeri mövcuddur, əqli mülkiyyət prioritet istiqamət kimi qəbul edilmiş və həmin unikal

sənədin 6 bəndində əqli mülkiyyət sisteminin qarşısında qoyulmuş mühüm vəzifələr öz əksini tapmışdır.

Bununla belə, ƏM mədəni hüquqların ayrılmaz hissəsidir, bu hüquqları dəstəkləyən isə Azərbaycanın multikultural siyasətidir.

Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin öz nitqində dediyi kimi, "...hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir... Əlbəttə, bunun üçün ənənə lazımdır, eyni zamanda dövlət siyasəti lazımi səviyyədə aparılmalıdır. Azərbaycanda hər iki amil mövcuddur".

Azərbaycan dövlətinin və xüsusən Heydər Əliyev Fondunun fəaliyyətində bu məsələlər başlıca yer tutur. «Tolerantlıq ünvanı - Azərbaycan» layihəsi çərçivəsində ölkəmizdə böyük işlər görülür.

Tarixi ənənəyə gəldiyi halda, deməliyəm ki, Azərbaycanda multikulturalizm qədim diyarımızda tarixən yaşayan bütün sakinlər tərəfindən dəstəklənən ənənə və həyat tərzidir. Bu ölkədə yaşayan bütün xalqlar Azərbaycan millətinin tərkibinə daxildir və onların hamısı azərbaycanlılardır.

Noyabrın 26-da Bakıda İSESKO-nun Baş Konfransının XII sessiyasının açılışında dövlət başçımız cənab İlham Əliyevin dediyi kimi, «Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var... multikulturalizmin alternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu gələcəyə aparan yol sayıla bilməz...".

Azərbaycanlıların multikultural, tolerant əlamətlərini təsdiqləyən ümumdünya "World Values" elmi layihəsidir (76 ölkə). Burada insanlar öz identikliyini, hansı qrupa uyğun olduğunu "lokal", "ölkə" və "dünya" səviyyəsində müəyyən ediblər. Dünya üzrə çox aşağı səviyyədə olan «icma» (24%, orta səviyyə 49,6% olduqda) və çox yüksək olan «dünya» (21%, orta səviyyə 8,7% olduqda) identikləridir. Bu tarazlaşmış göstəricilərlə yanaşı, mənzərəni tamamlayan yüksək «ölkə» identikliyidir (55%, orta səviyyə 41,7% olduqda). Digər, belə rəqəmlərlə səciyyələnən ölkə tapmaq mümkün deyil.

O ki qaldı Ermənistana, onun «icma» identifikliyi göstəricisi yüksək olaraq 38%-dir, «dünya» identifikliyi isə çox aşağıdır, yalnız 11%-dir. Nəticələri çıxartmaq çətin deyil.

Hamıya uğurlar arzulayıram.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.